# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ EKOLOJİ TERROR VƏ BÖYÜK QAYIDIŞIN EKOLOJİ ASPEKTLƏRİ

**Vüqar Kərimov**

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi*
*AMEA-nın Botanika İnstitutu*

Ötən il Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ordumuzun düşmən üzərində şanlı qələbəsi ilə yadda qalmışdır.

Ermənistanın təbiətə qarşı düşmən münasibəti və törətdiyi ekoloji terror nəticəsində işğaldan azad edilmiş ərazilərdə ətraf mühitə ciddi zərər vurulmuş, təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulmuşdur.

İşğal dövrü ərzində 54 min hektardan artıq meşə sahəsi məhv olmuş, ümumi sahəsi 43 min hektar olan 2 qoruq və 4 yasaqlıq ərazilərində qiymətli fauna və flora növlərinə ciddi ziyan dəymişdir. Həmçinin, ölkənin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edən 167 faydalı qazıntı yatağı, ekoloji əhəmiyyətə malik 7 relikt göl, 10 su anbarı, minlərlə hektar münbit torpaqlar iqtisadi və təsərrüfat dövriyyəsindən çıxarılmışdır.

Aparılan ilkin monitorinqlər min illik yaşı olan təbiət abidələrinin məhv edildiyini, meşələrimizin talan olunduğunu, yeraltı təbii sərvətlərin ətraf mühitə ziyan vurmaqla istismar olunduğunu təsdiq edir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən işğaldan azad olunmuş ərazilərdə qiymətləndirilmə və ekoloji tarazlığın bərpa olunması ilə bağlı tədbirlər görülür – meşələrin bərpası, xüsusi mühafizə olunan təbiət ərazilərində ekoloji mühitin yaxşılaşdırılması, ekoturizmin inkişafı, təbii sərvətlərdən, su ehtiyatlarından səmərəli istifadə, müşahidə və monitorinq sistemlərinin bərpası və digər istiqamətlərdə işlər aparılır.

Mövcud mineral xammal resurslarının monitorinqi və ehtiyatlarının yenidən qiymətləndirilməsi işlərinə də başlanılmışdır. Tikinti-quruculuq işləri nəzərdə tutulan hər bir rayon üzrə tikinti və qeyri-filiz faydalı qazıntı yataqlarının istismar potensialı və perspektivləri müəyyənləşdirilir.

Ölkə başçısının 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi İnkişafa dair Milli Prioritetlər" sənədində digər məsələlərlə yanaşı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühitin təmin olunması yaxın 10 illik üçün əsas strateji istiqamətlər kimi göstərilmişdir. Bu ərazilərdə ətraf mühtin bərpası üçün ekoloji təmiz texnologiyaların tətbiqi, alternativ enerji mənbələrindən istifadə, yaşıllıq ərazilərinin artırılması və çirklənmiş ərazilərin bərpası məsələləri ön plana çəkilmişdir və bu istiqamətlərdə işlər ciddi şəkildə həyata keçirilir.